# M Ü N D Ə R İ C A T


Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........................................................... 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu.......................... 7
Ali Məhkəmədə 2011-ci ildə baxılan işlər haqqında ümumi məlumat.................................... 10
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat........................................ 12
Ali Məhkəmənin məhkəmə kollegiyalarında 2011-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: .......................................................................... 13
Cinayət kollegiyası...................................................................................................... 13
Hərbi kollegiya........................................................................................................... 16
Mülki kollegiya........................................................................................................... 18
İnzibati - İqtisadi kollegiya........................................................................................... 21
Ali Məhkəmənin Plenumu............................................................................................ 24
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi....................................................................... 27
Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin iştirakı ilə 2011-ci ildə keçirilən tədbirlər haqqında məlumat................................................................................................. 31
Ali Məhkəmənin 2011-ci ildə beynəlxalq əlaqələri........................................................ 33
Bakıda inzibati hüquqa həsr olunmuş beynəlxalq konfrans .............................................. 40
Almaniyalı hakimlərin iştirakı ilə seminarlar təşkil edilmişdir.......................................... 42
Hakimlərin davranışı məsələlərinə həsr olunmuş beynəlxalq konfrans................................. 44
Ali Məhkəmənin İnternet səhifəsi................................................................................. 46
Ali Məhkəmənin bülleteni............................................................................................ 47
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi.......................................................... 48
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası............................................................................................................... 48

## Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***




Artıq ənənə halını almış görüşümüzdə Sizləri salamlamaq mənim üçün çox xoşdur.

Öncə nəzərinizə çatdırım ki, ötən 2011-ci il bir sıra əlamətdar hadisələrlə yadda qaldı. Bu hadisələrin ən önəmlisi dövlət müstəqilliyimizin bərpasının iyirminci ildönümünün təntənəli qeyd olunması idi. Yeni məhkəmə hakimiyyətinin formalaşdırılması dövlət müstəqilliyimizin bəhrəsidir. Məhkəmə hakimiyyətinin əsas məqsəd və vəzifəsi bunlardır: hüquqi dövlət çərçivəsində məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinin təmin edilməsi, vətəndaşların məhkəməyə ədalətli araşdırma üçün müraciət etmək hüququnun təmin edilməsi, peşəkar hüquqi yardım almaq imkanı, məhkəmə qərarlarından şikayət vermək hüququnun həyata keçirilməsi və sair. Ən başlıcası insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi, onları gözləmək və qorumaq isə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Məhkəmə hakimiyyəti orqanlarında ədalət mühakiməsinin həyata keçirilməsi səviyyəsi elə qurulmalıdır ki, məhkəmə cəmiyyətin şüurunda dövlət iradəsinin

ifadəsi kimi məcburiyyət və güc orqanı deyil, cəmiyyət üzvlərinin maraqlarını ifadə edən, vətəndaşların qanun icraçılarının özbaşınalığından müdafiəsini təmin etməyə tam cavab verə bilən orqan kimi qəbul olunsun.

Vurğulamağı lazım bilirəm ki, ədalət mühakiməsinin aparıcıları olan hakimlər tərəfindən qəbul edilmiş bütün qərarlar qanuni və ədalətli olmalıdır. Əsassız qərarlar insanların taleyinə təsir edir. Əgər qəbul edilmiş qərar ədalətsizdirsə, insanlar çox böyük əziyyətə məruz qalırlar. Eyni zamanda, cinayət törətmiş insanlar da məsuliyyətdən yayınmamalıdırlar. Hər bir cinayətin müvafiq cəzası olmalıdır. Bununla bərabər, günahsız insanlar heç vaxt ədalətsiz qərarların qurbanları olmamalıdırlar. Bu, məhkəmə sisteminin əsas prinsipləridir. Fəaliyyətimiz həmin prinsiplərin daim yerinə yetirilməsinə istiqamətləndirilir.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, məhkəmə hakimiyyətinə inamın yaranmasının bir cəhətini də məhkəmə proseslərinin aşkarlığı təşkil edir. İctimaiyyətdə Ali Məhkəmənin fəaliyyəti haqqında şəffaf və dolğun məlumatların olmasını təmin etmək məqsədi ilə internet səhifələrində daim yeniləşdirilən saytımız yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar verilir. Bildiyiniz kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin məhkəmə ilə bilavasitə ünsiyyət saxlaması imkanlarının artırılması və ya bizdə baxılan işlər haqqında operativ məlumatların əldə edilməsi üçün Ali Məhkəmədə ictimai əsaslarla mülki və cinayət işləri üzrə hakim-spikerlər fəaliyyət göstərirlər. Siz müəyyən məsləhətləşmələr və məlumat üçün Ali Məhkəmənin mətbuat katibinə və ictimai əsaslarla fəaliyyət göstərən "spiker-hakim"lərə, yəni "danışan hakim"lərə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sistemi ilə bağlı Sərəncamlarının icrası və Ali Məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində 2011-ci ildə bir sıra işlər görülmüşdür. Ali Məhkəmənin hüquqi və informasiya təminatı gücləndirilmiş,

Aparatda yeni texnologiyalar tətbiq edilmiş, hakimlərin maddi təminatı yaxılaşdırılmış, Ali Məhkəmədə maddi-texniki baza möhkəmləndirilmişdir.

Azərbaycan Respublikası İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulduğundan Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətin Avropa Məhkəməsinin yurisdiksiyasını tanımasından, ilk növbədə Azərbaycan vətəndaşları faydalanmaqdadırlar. Vətəndaşlar İnsan hüquqları üzrə Avropa Məhkəməsinə çıxış əldə etmiş, məhkəmə və hüquq-mühafizə orqanlarının iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri çox önəmlidir. Hər həftə Ali Məhkəmədə keçirilən seminarda beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları və Avropa Məhkəməsinin presedent hüququ öyrənilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilir, Avropa dövlətləri məhkəmələrinin təcrübəsinin öyrənilməsinə kömək edən xarici dövlətlərə tanışlıq səfərləri təşkil edilir. Hakim vəzifəsinə seçim prosedurları Avropa standartlarına uyğunlaşdırılmışdır. Məhkəmə prosesində ən yeni informasiya texnologiyalarından istifadə olunur. Eyni zamanda əvvəlki illərlə müqayisədə 2011-ci il ərzində vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi yüksəlmişdir.

Ali Məhkəmənin bütün kollegiyalarında - mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalarında 2011-ci ildə baxılmış işlər 2010-cu ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz artmışdır.

Baxılan işlərin sayının artmasına baxmayaraq ləğv olunan məhkəmə qərarlarının sayı azalmışdır. Bu isə aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilən qərarların keyfiyyətinin əvvəlki illərə nisbətən yüksək olmasını göstərir.

Ali Məhkəmənin Plenumunun 2011-ci ildə 6 iclası keçirilmiş, 31 qərar çıxarılmışdır.

2011- ci ildə Ali Məhkəmədə vətəndaşların ərizə və şikayətlərinə, digər müraciətlərinə baxılmasına, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsinə diqqət artırılmışdır.

Ali Məhkəməyə edilən müraciətlərdə artma müşahidə olunmuşdur. Bunu, vətəndaşların məhkəmələrə olan inamının artması kimi qəbul etmək olar.

***Hörmətli jurnalistlər!***

Sizin qanunun aliliyinin təmin olunması, insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi və sosial ədalətin bərpası naminə Ali Məhkəmə ilə daha sıx əməkdaşlığınız faydalı ola bilər.

Sizə fəaliyyətinizdə yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxildir, mülki və inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyasından ibarətdir.

"Məhkəmələr və Hakimlər haqqında" Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin "mülki işlər üzrə, iqtisadi nübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının" adları dəyişdirilərək müvafiq surətdə "mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə" 8 oktyabr 2010-cu il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri yaranmışdır. Həmin qərara uyğun olaraq:

**Mülki kollegiya** - kollegiya sədrindən və on üç nəfər hakimdən ibarət beş məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və altı nəfər hakimdən ibarət iki məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmə 2011-ci ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 33 hakimdən ibarət tərkibdə fəaliyyət göstərmişdir.
Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikası Ali Məhkəməsinin strukturu



# Ali Məhkəmədə 2011-ci ildə baxılan işlər haqqında ümumi məlumat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda 2011-ci ildə cəmi **5 789** işə, o cümlədən:

- Cinayət kollegiyasında **1082** nəfər haqqında **946** işə, **(16,3%)**
- Hərbi kollegiyada **119** nəfər haqqında **107** işə, **(1,8%)**
- Mülki kollegiyada **4023** işə, **(69,5%)**
- İnzibati-iqtisadi kollegiyada **682** işə, (**11,8%)**
- Plenumda isə **31** işə **(0,5%)** baxılmışdır.

Statistik məlumatların müqayisəli təhlili göstərir ki, Ali Məhkəmədə 2011-ci ildə baxılmış işlərin ümumi sayı 2010-cu illə müqayisədə **435** iş, **yəni 8,1 %** artmışdır.




Eyni zamanda müəyyən edilmişdir ki, 2010-cu ilə nisbətən 2011-ci ildə Ali Məhkəmədə baxılan işlərin sayı:
-Cinayət kollegiyasında **199 iş, ( 26,6%);**
-Hərbi kollegiyada **15 iş ( 16,3%) ;**
-Mülki kollegiyada **99 iş (2,5%) ;**
-İnzibati-iqtisad kollegiyasında **139 iş (25,6%) artmış,**
-Plenumda isə **17 iş ( 35,4%) azalmışdır.**

Məhkəmə statistikasına dair məlumatlarından görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2011-ci ildə **13488 nəfər**, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən **11748 nəfər,** Hərbi Məhkəmələr tərəfindən **1740** nəfər məhkum edilmiş, **36** nəfər barəsində isə bəraət hökmü çıxarılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2011-ci ildə ümumi məhkum edilənlərin sayı 2010-cı ilə nisbətən **825** nəfər **5,7%** azalmışdır.

Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən məhkum edilənlərdən **3342 nəfər** barəsində hökm və qərarlara apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da birninci instansiya məhkəmələri tərəfindən məhkum edilənlərin cəmi **24,7% faizini** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında çıxarılmış **3342** nəfər haqqındakı hökm və qərarlarından **1034** nəfər barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da apellyasiya məhkəmələrnində 2011-ci ildə baxılmış cinayət işlərinin cəmi **30,9** faizini təşkil edir.

**Göründüyü kimi, 2011-ci ildə respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsində çıxarılmış hökm və qərarların 24,7 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların 30,9 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.**




Bundan əlavə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2011-ci ildə **127.249** işə, o cümlədən ümumi məhkəmələr tərəfindən **110.363** işlərə, inzibati-iqtisadi məhkəmələr tərəfindən **16.886** inzibati iqtisadi işlərə baxılmışdır ki, bu da bütövlükdə 2010-cu ildə baxılmış mülki və inzibati-iqtisadi işlərdən **30299** iş **(31,2%)** çoxdur.

Məlumatların əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisad məhkəmələri tərəfindən baxılmış işlər üzrə çıxarılmış yekun məhkəmə qərarlarından verilmiş apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində **10.968** işə baxılmışdır ki, bu da birinci instansiya ümumi və inzibati-iqtisad məhkəmələrində baxılmış mülki işlərin **8,6** faizinin təşkil edir.

Qeyd olunan müddətdə apellyasiya məhkəməlrində baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayətləri əsasında **4705** isə Ali Məhkəmənin müvafiq kollegiyalarında o cümlədən mülki kollegiyada **4023** işə, inzibati-iqtisadi kollegiyada isə **682** işə kassasiya qaydasında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin **36,6** faizini təşkil edir.

**Göründüyü kimi Respublikanın birinci instansiya mülki və inzibati iqtisad məhkəmələri tərəfindən 2011-ci ildə baxılmış mülki və inzibati iqtisadi işlər üzrə çıxarılmış yekun məhkəmə qərarlarının cəmi 8,6 faizinin qanuniliyi apellyasiya qaydasında , apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının isə 36,6 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.**

## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kolleqiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət və hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Mülki və İnzibati İqtisadi Kolleqiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati - iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

## Ali Məhkəmənin kollegiyalarında 2011-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

### 1. Ali Məhkəmənin Cinayət kollegiyası

Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra **«CK»**) apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə cinayətləri, hərbi xidmət əleyhinə olan cinayətlər və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəmyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan cinayət işlərinə (materiallara) kassasiya qaydasında baxılır.

CK-ya 2011-ci ildə cəmi **1207 nəfər** haqqında **1071 iş, o cümlədən 999 (82,8%)** nəfər haqqında **892 (83,3%)** iş kassasiya şikayətinə, **208 (16,4%)** nəfər haqqında **179 (15,9%)** iş kassasiya protestinə əsasən daxil olmuşdur.

Məlumatın əhatə etdiyi dövrdə CK-da **1082 nəfər haqqında 946 cinayət işi üzrə yekun məhkəmə qərarı çıxarılmış, 3 (0,2%) nəfər** haqqında **3 iş** üzrə kassasiya şikayəti qanunvericilikdə nəzərdə tutulan tələblərə uyğun olmadığından verildiyi üçün baxılmamış saxlanılmış, **122 (10,1%) nəfər haqqında 122 (11,4%) iş** isə ilin sonunda daxil olduğundan 2012-ci ilə keçirilmişdir.




2011-cı ildə CK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə baxılmış **1082 nəfər** haqqında **946 işə** iş üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

- **684(63,2%) nəfər haqqında 599**

**(63,3%) iş üzrə qərarları dəyişdirilmədən saxlanılmış;**
**- 179 (16,5% ) nəfər haqqında 147 (15,5%) iş üzrə qərarı ləğv olunaraq, onlardan:**
**- 174 (16,1% ) nəfər haqqında 142 (15%) iş üzrə qərarlar ləğv olunaraq, iş yeni apellyasiya baxışına qaytarılmış;**
**- 5 (0,5% ) nəfər haqqında 5 (0,5%) iş üzrə qərar ləğv olunaraq, iş üzrə icraata xitam verilmişdir.**
**- 72 (6,7 %) nəfər haqqında 64 (6,8%) iş üzrə qərarlar dəyişdirilmiş;**
**- 3 (0,3%) nəfər haqqında 3 (0,3%) iş üzrə kassasiya şikayətindən imtina edildiyindən kassasiya şikayətinin icraatına xitam verilmiş;**
**- 48 (4,4%) nəfər haqqında olan 46 (4,9%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;**
**- 96 (8,9%) nəfər haqqında 87 (9,2%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır;**

Bundan əlavə Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimləri tərəfindən 2011-ci ildə İnsan hüquqları üzrə Avropa Məhkəməsində kommunikasiya edilən 22 nəfər Azərbaycan Respublikasının vətəndaşlarının şikayətləri üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında cinayət işləri tələb edilərək öyrənilmiş və sorğularda qoyulmuş suallara cavab məktubları hazırlanaraq Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərilmişdir.




Ali Məhkəmənin Cinayət Kollegiyasında 2011-ci ildə apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılma nəticələrinə dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsində Cinayət kollegiyasında 2011-ci ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

# MƏLUMAT

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb (*nəfərlə*) | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti geri | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | İş üzrə icraata xitam | | | | | |
| 1 | Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsinin *2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından* | 11 | *5* | - | - | - | - | - | - | *6* | - |
| 2 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 2 | *2* | - | - | - | - | - | - | - | - |
| 3 | Bakı Apelyasiya Məhkəməsi | 605 | *393* | *89* | *88* | *1* | *3* | *42* | *56* | *22* | 1 |
| 4 | Gəncə Apelyasiya Məhkəməsi | 141 | *93* | *15* | 15 | - | - | *10* | *20* | *3* | - |
| 5 | Şırvan Apelyasiya Məhkəməsi | *145* | *84* | *36* | *32* | *4* | - | *9* | *13* | *3* | - |
| 6 | Sumqayıt Apelyasiya Məhkəməsi | 116 | *64* | *26* | *26* | - | - | *9* | *5* | *12* | - |
| 7 | Şəki Apelyasiya Məhkəməsi | 61 | *42* | *13* | 13 | - | - | 2 | 2 | 2 | - |
| 8 | AR Ali Məhkəməsinin 1-ci instansiya məhkəmə kolleqiyasının 2000-ci ilin 01 sentyabr tarixədək olan qərarlarından. | 1 | *1* | - | - | - | - | - | - | - | - |
| | Cəmi | 1082 | *684 63,2%* | *179 16,5%* | *174 16,1%* | *5 0,5%* | *3 0,3%* | *72 6,7%* | *96 8,9%* | *48 4,4%* | 1 |

**QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2010-cu ildə 881 nəfər haqqında 747 işə baxıldığı halda 2011-cı ildə 1082 nəfər haqqında 946 işə** baxılmışdır ki, bu da **2010-cu ildə** baxılmış işlərin sayına görə **199 (26,6%)** iş, şəxslərin sayına görə **201 (22,8%) nəfər artmıdır.**

## 2. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata əsasən müharibə cinayətlərinə, hərbi xidmət əleyhinə olan cinayətlərə və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işlərinə kassasiya qaydasında baxılır.







**2011-ci ildə HK-ya cəmi 138 nəfər haqqında 125 cinayət işi, o cümlədən 106 nəfər (76,8%) haqqında 99 iş (79,2%) kassasiya şikayəti, 32 nəfər (23,2%) haqqında 26 iş (20,8) isə kassasiya protestinə əsasən daxil olmuşdur.**

**Məlumatın əhatə etdiyi dövrdə HK-da 119 nəfər haqqında 107 cinayət işinə baxılmış, 19 nəfər haqqında 18 cinayət işi icraata ilin sonunda daxil olduğu üçün həmin işlərin baxılmas 2012-ci ilə təyin edilmişdir.**

**2011-ci ildə HK-da kassasiya qaydasında baxılmış 119 nəfər haqqında 107 iş üzrə çıxarılmış yekun qərarı ilə apellyasiya instansiya məhkəmələrinin:**

**- 63 nəfər (52,9%) haqqında 60 iş üzrə qərarlar dəyişdirilmədən saxlanılmış;**

**- 19 nəfər (16%) haqqında 19 iş üzrə qərarlar məhkumlara təyin edilmiş cəzalarla əlaqədə dəyişdirilmiş;**

**- 14 nəfər (11,8%) haqqında 8 iş üzrə qərarlar ləğv edilərək, onlardan:**

**- 11 nəfər (9,2%) haqqında 7 işi yeni apellyasiya baxışına qaytarılmış;**

**- 3 nəfər (2,5%) haqqında 1 cinayət işi üzrə cinayət işinin icraatına xitam verilmişdir.**

**- 8 nəfər (6,7%) haqqında 6 cinayət işi üzrə kassasiya şikayəti vermə müddətinin bərpasına dair vəsatət təmin edilməmiş;**

**- 15 nəfər (12,6%) barəsində kassasiya şikayəti məhkumların və ya onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır.**

**Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında 2011-ci ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

***C Ə D V Ə L***

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb (nəfərlə) | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | İş üzrə icraata xitam verilib | | | | | |
| 1 | Azərbaycan Respublikasının Apelyasiya Məhkəməsinin 2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından | 1 | *1* | - | - | - | - | - | - | - | - |
| 2 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 11 | *7* | - | - | - | - | 1 | 2 | 1 | - |
| 3 | Bakı Apelyasiya Məhkəməsi | 36 | *21* | *6* | *3* | *3* | - | *2* | *2* | *5* | 1 |
| 4 | Gəncə Apelyasiya Məhkəməsi | 31 | *13* | *2* | 2 | - | - | *9* | *6* | *1* | - |
| 5 | Şırvan Apelyasiya Məhkəməsi | *31* | *17* | *2* | *2* | - | - | *6* | *5* | *1* | |
| 6 | Sumqayıt Apelyasiya Məhkəməsi | 9 | *4* | *4* | *4* | - | - | *1* | - | - | - |
| 7 | Şəki Apelyasiya Məhkəməsi | - | - | - | - | - | - | - | - | - | - |
| Cəmi | | 119 | *63 52,9%* | *14 11,8%* | *11 9,2%* | *3 2,5%* | - | *19 16%* | *15 12,6%* | *8 6,7%* | 1 |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2010–cu ildə **103 nəfər** haqqında **92 işə** baxıldığı halda, 2011-ci ildə isə **119 nəfər** haqqında **107** işə baxlımışdır ki, bu da 2010-cu illə müqayisədə **işlərin sayına görə 15 iş (16,3%) , şəxslərin sayına görə 16 nəfər (15,5%) artmışdır.**

## 3. Ali Məhkəmənin Mülki kollegiyası




Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «**MK**») apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

MK-ya 2011-ci ildə **4 684 iş** daxil olmuşdur ki, bu da 2010-cu ildə icraatda olmuş **4 515** mülki işdən **169 iş**, yəni **3,7 %** çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə MK-nın icraatda olan **4684** mülki işdən **4023 işə (85,9%) yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 57 iş (1,2%)** baxılmadan qaytarılmış, **20 iş (0,4%)** baxışdan çıxarılmış, **584 (12,5%) iş icraata** ilin sonunda daxil olduğundan həmin işlərin baxılması 2012-ci ilə təyin edilmişdir.

MK-da 2010-cu ildə yekun məhkəmə qərarı çıxarılmaqla **3924** mülki işə baxıldığı halda, 2011-ci ildə bu işlərin sayı **99 iş (2,5 %) artaraq 4023** mülki iş təşkil etmişdir.

MK-da 2011-ci ildə işlərə kassasiya qaydasında baxılmasının nəticələri aşağıdakı kimi olmuşdur:

**- 3136 iş üzrə (77,9%) apellyasiya instansiya məhkəmələrinin qətnamə və qərardadları dəyişdirilmədən saxlanılmışdır;**

**- 826 iş üzrə (20,5 %) apellyasiya instansiya məhkəmələrinin qətnamə və qərarları ləğv edilərək, onlardan;**

**- 749 iş üzrə (18,6%) qətnamə və qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;**

**- 58 iş üzrə (1,4%) qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**

**- 6 iş üzrə (0,2%) qətnamə ləğv edilərək, (ərizə) iddia baxılmamış saxlanılmış;**

**- 13 iş üzrə (0,3%) qətnamə ləğv edilərək iç üzrə icraata xitam verilmiş;**

**- 26 iş üzrə (0,6%) qətnamə və qərardad dəyişdirilmiş;**




**- 35 iş üzrə (0,9%) şikayətçi kassasiya şikayətindən imtina edildiyi üçün kassasiya icraatına xitam verilmişdir.**

Mülki Kollegiyanın icraatına 2011-ci ildə xarici ölkə məhkəmələrinin Azərbaycan Respublikasında tanınması və icraçı ilə bağlı **97 ərizə** daxil olmuş, onlardan **89 ərizəyə** baxılmış, **8 ərizənin** baxılması isə 2012-ci ilə təyin olunmuşdur.

Bundan əlavə Ali Məhkəmənin Mülki Kollegiyasının hakimləri tərəfindən 2011-ci ildə İnsan Hüquqları üzrə Avropa Məhkəməsində Azərbaycan vətəndaşlarının şikayəti üzrə Kommunikasiya edilən 7 mülki iş üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında mülki işlər tələb edilərək öyrənilmiş və sorğularda qoyulmuş suallara cavab məktubları hazırlanaraq Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərilmişdir. ‼

! Ali Məhkəmənin mülki kollegiyasında 2011-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarına kassasiya qaydasında baxılma nəticələrinə dair məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.

## *Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasında 2011-ci ildə apelyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

## *M Ə L U M A T*

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Azərbaycan Respublikasının Apelyasiya Məhkəməsinin 16 iyul 2007-ci il tarixədək olan qərarlarından** | **7** | *1* | *6* | *4* | **2** | **-** | **-** | **-** | **-** | **-** |
| 2 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | **18** | *18* | **-** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **-** |
| 3 | **Bakı Apelyasiya Məhkəməsi** | **2455** | *1929* | *494* | *448* | *36* | *3* | *7* | *14* | *18* | **5** |
| 4 | **Gəncə Apelyasiya Məhkəməsi** | **497** | *394* | *95* | *88* | *5* | **-** | *2* | *2* | *6* | **1** |
| 5 | **Şırvan Apelyasiya Məhkəməsi** | **319** | *243* | *72* | *63* | *6* | **2** | **1** | **1** | *3* | **-** |
| 6 | **Sumqayıt Apelyasiya Məhkəməsi** | **490** | *364* | *114* | *104* | *8* | **-** | *2* | *5* | *7* | **1** |
| 7 | **Şəki Apelyasiya Məhkəməsi** | **237** | *187* | *45* | *42* | **1** | *1* | *1* | **4** | **1** | **-** |
| | **Cəmi** | *4 023* | *3 136 77,9%* | *826 20,5%* | *749 18,6 %* | *58 1,4%* | *6 0,2%* | *13 0,3%* | *26 0,7%* | *35 0,9%* | *7* |

**QEYD:** *Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin MK-da 2010–ci ildə **3 924 işə** baxıldığı halda, 2011-cı ilə **4 023 işə** baxılmışdır ki, bu da 2011-ci ildə baxılmış işlərin sayına görə **99 (2,5%) çoxdur**.*

Statistik məlumatların təhlili göstərir ki, 2010-cu ilə nisbətən 2011-ci ildə MK-da baxılmış işlərin sayı 2,5 faiz artsada apelyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və qərardadlarının sayı 2010-cı ilə nisbətən **2011-ci ildə (0,6%) azalmışdı**r.

2011-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **53 644 manat 65 qəpik** dövlət rüsumu ödənilmişdir. Hesabat dövründə MK-da baxılan işlər üzrə **7 xüsusi qərardad** çıxarılmışdır.

## 4. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası

Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «**İİK**») apellyasiya instansiyası məhkəmələrinin inzibati iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**İİK-ya 2011-ci ildə 804 iş, o cümlədən 674 iqtisadi iş (83,8%), 130 inzibati iş (16,2%) daxil olmuşdur ki, bu da 2010-cı ildə icraatda olmuş işlərdən, 197 iş (32,4%) çoxdur.**




İİK-nın icraatında olan **804** işdən **682 işə (84,8%)** yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **24 iş (2,9%)** baxılmadan geri qaytarılmış, **98 iş (12%)** icraata ilin sonunda daxil olduğu həmin işlərin baxılması 2012-ci ilə təyin edilmişdir.

İİK-da 2010-cı ildə yekun məhkəmə qərarı çıxarılmaqla **543** işə baxılmışdırsa, 2011-ci ildə bu işlərin sayı **139 iş (25,5 %) artaraq, 682** iş təşkil etmişdir.

İİK-da cəmi kassasiya qaydasında baxılmış **682 iş** üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə müvafiq Apellyasiya Məhkəmələrinin:

- **498 iş üzrə (73%)** qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;
- **171 iş üzrə (25%)** qətnamə və ya qərardad ləğv edilərək, onlardan:

**- 150 iş üzrə (22%)** qətnamə və ya qərardad ləğv iş yenidın apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

**- 2 iş üzrə (0,3%)** qətnamə və qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

**- 10 (1,5%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;

**- 9 (1,3%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

**- 9 (1,3%)** iş üzrə qətnamə dəyişdirilmiş;




**- 4 (0,6%)** iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

! 2011-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən **8450 manat 40 qəpik** dövlət rüsumu ödənilmişdir.

**Bu məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.**

***Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasında 2011-ci ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

***M Ə L U M A T***

| Sıra | Apelyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə Saxlanılıb | Cəmi ləgv olunub, | Onlardan, ləgv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apelyasiya | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Azərbaycan Respublikasının İqtisad Məhkəməsinin 2007-ci il 16 iyul tarixdən olan qərarlarından** | **3** | **1** | **2** | *2* | - | - | - | - | - | - |
| 2 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | **1** | **1** | | - | - | - | - | - | - | - |
| 3 | **Bakı Apelyasiya Məhkəməsi** | **525** | *390* | *124* | *108* | *1* | *6* | *9* | *4* | *7* | - |
| 4 | **Gəncə Apelyasiya Məhkəməsi** | **32** | *23* | *7* | *7* | - | - | - | - | *2* | - |
| 5 | **Şırvan Apelyasiya Məhkəməsi** | 27 | *20* | *7* | *7* | - | - | - | - | - | - |
| 6 | **Sumqayıt Apelyasiya Məhkəməsi** | 59 | *42* | *17* | *13* | 1 | *3* | - | - | - | - |
| 7 | **Şəki Apelyasiya Məhkəməsi** | 35 | *21* | *14* | *13* | - | 1 | - | - | - | - |
| **Cəmi** | | *682* | *498*<br>*73%* | *171*<br>*25%* | *150*<br>*22%* | *2*<br>*0,3%* | *10*<br>*1,6%* | *9*<br>*1,5%* | *4*<br>*0,6%* | 9<br>*1,5 %* | - |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2010-cu ildə **543 işə** baxıldığı halda, 2011-ci ildə **682 işə** baxılmışdır, bu da 2010-cu ildə baxılmış **işlərin sayına nisbətən 139 işi (25,5%) iş çoxdur. 2011-ci ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən 8 450 manat 40 qəpik** dövlət rüsumu ödənilmişdir.

## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun 79-cu maddəsinə əsasən **Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

2011-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun **6** iclası keçirilmişdir.

Ali Məhkəmənin Plenumunun 18 yanvar 2011-ci tarixli iclasında Ali Məhkəmənin Kollegiyalarında 2010-cu ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair müvafiq Kollegiya sədrlərinin məlumatları dinlənilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Plenum iclaslarında **31 işə**, o cümlədən **26 mülki, 4 cinayət və 1 iqtisadi** işə baxılmışdır ki, bu da 2010-cu ildə Plenumda baxılmış işlərlə müqayisədə **17 iş (35,4%) azdır.**

Qeyd edilən müddətdə Ali Məhkəmənin Plenumunda baxılmış mülki işlərdən **3-ü** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları, **3-ü** Konstitusiya Məhkəməsinin qərarları, **3-ü** əlavə kassasiya şikayətinə, **16-sı** yeni açılmış hallara dair ərizəyə, **1-i** isə Ali Məhkəmə sədrinin təqdimatına əsasən baxılmışdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış **1** mülki iş üzrə məhkəmə qərarları ləğv edilərək, mülki iş yenidən baxılması üçün Apellyasiya instansiya məhkəməsinə göndərilmiş, **2** mülki iş üzrə məhkəmə qərarlarına yenidən baxılması zərurətinin olmaması qərara alınmışdır.

Konstitusiya Məhkəməsinin qərarı əsasında baxılmış **3** mülki iş üzrə məhkəmə qərarları ləğv edilərək, mülki işlər yeni apellyasiya baxışına göndərilmişdir.

Əlavə kassasiya şikayətləri əsasında baxılmış **2** mülki iş üzrə məhkəmə qərarları ləğv edilərək həmin işlər baxılması üçün apellyasiya instansiya məhkəmələrinə göndərilmiş, **1** mülki iş üzrə isə əlavə kassasiya şikayəti təmin edilməmişdir.

Bu müddətdə **14** mülki iş üzrə yeni açılmış hallar üzrə ərizələr rədd edilmiş, **2** mülki iş üzrə isə yeni açılmış hallar üzrə ərizələr təmin edilərək, məhkəmə qərarları ləğv edilərək, bu işlər yenidən baxılması üçün birinci instansiya məhkəmələrinə göndərilmişdir.

2011-ci ildə Ali Məhkəmənin sədrinin təqdimatına əsasən Ali Məhkəmənin Plenum iclasında **1** mülki işə baxılaraq, məhkəmə qərarları ləğv edilərək mülki iş yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə **Ali Məhkəmənin Plenumunda** cəmi – **4 cinayət işinə,** o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən **2 işə,** Ali Məhkəmə Sədrinin təqdimatına **1 işə** və Baş Prokurorun protestinə əsasən **1 işə** baxılmışdır.

Insan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış **2** cinayət üzrə məhkəmə qərarları ləğv edilək, cinayər işləri yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə, Ali Məhkəmə Sədrinən təqdimatına əsasən **1** cinayət işi üzrə qərar ləğv edilərək iş Ali Məhkəmənin Cinayət Kollegiyasına göndərilmiş, Baş Prokurorun protestinaə əsasən baxılmış **1 iş** üzrə Ali Məhkəmənin Cinayət Kollegiyasının qərarı dəyişdirilmişdir.

Qeyd olunan müddətdə Ali Məhkəmənin Plenumunda yeni açılmış hallar üzrə ərizə əsasında **1** iqtisad işinə baxılmış, həmin iş üzrə ərizənin geri qaytarılması haqda qərar qəbul edilmişdir.

Bundan əlavə Ali Məhkəmənin Plenumunun iclaslarında "Narkotik vasitələrinin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyədinə dair cinayət haqqında işləri üzrə məhkəmə təcrübəsi haqqında", "Ərizənin baxılmamış saxlanılması haqqında işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilmə təcrübəsi haqqında", "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfində tətbiqi təqrübəsi haqqında" məsələlər müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir.

Ali Məhkəmənin Plenumunun 31 mart 2011-ci il tarixli iclasında İmişli Rayon Məhkəməsinin hakimi Q.Rzayevin hakimlik fəaliyyətinə vaxtından əvvəl xitam verilməsinə dair Məhkəmə Hüquq Şurasının 25 yanvar 2011-ci il tarixli qərarından verdiyi şikayətə baxaraq, şikayətin təmin olunmaması barədə qərar qəbul edilmişdir.
Ali Məhkəmənin 1 iyul 2011-ci il tarixli Plenum iclasında Ali Məhkəmədə yeni açılmış hallar üzrə məhkəmə aktlarına yenidən baxılması haqda ərizələrə baxan məhkəmə tərkibinin təşkili barədə məsələyə baxılaraq müvafiq qərar qəbul edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunda**
**2011-ci ildə baxılmış işlər haqqında müqayisəli**
**MƏLUMAT**

| İşlərin baxılma əsasları | 2010-cu il | 2011-ci il | Fərq | |
|---|---|---|---|---|
| | | | artıb | azalıb |
| Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış mülki işlər | 29 | 20 | - | 9<br>31% |
| Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış iqtisad işləri | 2 | 1 | - | 1<br>50% |
| Əlavə kassasiya şikayəti və protestlərə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış cinayət işləri | 6 | 2 | - | 4<br>66,6% |
| Konstitusiya Məhkəməsi qərarlarına əsasən mülki işlər üzrə qüvvədən düşmüş hesab edilən qərarlarla əlaqıdar | 6 | 3 | - | 3<br>50% |
| İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən baxılmış cinayət işləri üzrə | 4 | 2 | - | 2<br>50% |
| İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən baxılmış mülki işlər üzrə | 1 | 3 | 2 | - |
| Cəmi: | 48 | 31 | 2 | 17<br>35,4% |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmədə onun fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Dövlətin informasiya texnologiyaları sahəsində siyasətinin əsas məqsədi informasiya cəmiyyətinə keçid və ölkənin dünya informasiya cəmiyyətinə inteqrasiyası təşkil edir. İnkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi bunun üçün dövlət orqanlarının informasiya texnologiyaları sahəsindəki siyasətin informasiya texnologiyalarının əsas komponentlərinə – texnoloji və hüquqi normativ - tarazlaşmış tənzimləyici təsiri əsas rol oynayır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuşdur. Ali Məhkəmə rəhbərliyinin, aparatının və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin effektivliyinin artırılması təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlı olub aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;
- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;
- məhkəmə sisteminin informasiya fəzasında eyniliyinin təmin olunması;
- əhali və təşkilatlar üçün məhkəmələrin daha da açıqlılığının təmin olunması.

Ali Məhkəmədə müasir informasiya texnologiyalarının tətbiqinin təmin olunması üçün bir sıra işlər yerinə yetirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-konfrans əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;
- məhkəmədə kargüzarlığın və məhkəmə statistikasının məlumatlarının keyfiyyətinin artırılması;
- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;
- Qərarların qəbul edilməsi üçün müasir analitik metodlarının tətbiqi vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;
- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;
- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiya vasitələrinin etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyinin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) nəzərdə tutulmuş " Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması" bəndinin yerinə yetirilməsi və informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2012-2013-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmış, mövcud "Elektron sənəd dövriyyəsi və kargüzarlıq sistemi" yeni daha müasir əsasa köçürülmüş, "İnternet portal www.supremecourt.gov.az"-da yeni "E-Xidmətlər" bölməsi əlavə edilmiş, "Təhlil və statistika sistemi", "Hüquq ədəbiyyatı elektron kitabxana sistemi", "Video konfrans-rabitə sistemləri" daha da təkmilləşdirilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən sonra Aparat və İşlər İdarəsi 2011-ci ildə aşağıdakı tərkibdə fəaliyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı**

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. Dövlət qulluğu və kadr məsələləri sektoru
6. İcra məmurları sektoru
7. Ali Məhkəmə Plenumunun katibliyi
8. Mülki kollegiyanın katibliyi
9. Inzibati-İqtisadi kollegiyasının katibliyi
10. Cinayət kollegiyasının katibliyi
11. Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi
3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Vətəndaşların qəbulu və müraciətlərilə iş şöbəsinə 24419 ərizə şikayət və müraciət daxil omuşdur ki, bu da 2010-cu Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və müraciətlərin sayından **5501** (**29%**) çoxdur.

Vətəndaşalrın ərizə, şikayət və digər müraciətlərinə vaxtında baxılması, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsi daim diqqət mərkəzində olmuşdur.

Bu müddətdə Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və digər müraciətlərdən **6765-i (27,7%)** baxılmaq üçün Ali Məhkəmənin müvafiq kollegiyalarına verilmiş, **17654 (72,3%)** müraciətə isə Ali Məhkəmənin rəhbərliyi və Aparatı tərəfindən baxılmışdır.

Bundan əlavə Ali Məhkəmədə vətəndaşların qəbulu hər həftə təmin edilmiş, məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin sədri tərəfindən **79 nəfər**, kollegiya sədrləri tərəfindən isə **71 nəfər** qəbul edilərək, onlara müraciət etdikləri məsələlər üzrə müvafiq izahlar verilmişdir.

## Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin iştirakı ilə keçirilən tədbirlər haqqında

## M Ə L U M A T

**10 fevral 2011-ci il tarixdə** Sumqayıt Apellyasiya Məhkəməsində Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Məhkəmə-Hüquq Şurasının üzvü, Ali Məhkəmənin hakimi Aslan Kalbalıyevin, Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynovun, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri İkram Kərimovun, məhkəmənin hakimlərinin və yurisdiksiyaya daxil olan məhkəmələrin sədrləri və hakimlərinin iştirakı ilə korrupsiyaya qarşı mübarizə və məhkəmə sistemində neqativ halların aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələrlə həsr olunmuş geniş iclas keçirilmişdir.

**18 iyun 2011-ci il tarixdə** Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyinin birgə təşkilatlığı ilə respublikanın rayon, şəhər və apellyasiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə keçirilən seminar müşavirədə İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələbləri, Avropa Məhkəməsinin president hüququnun tətbiqi vəziyyəti və mövcud problemlər müzakirə edilmişdir.

Müşavirədə Ali Məhkəmənin sədri Ramiz Rzayevin Ədalət Mühakiməsinin səmərəliyinin artırılması sahəsində qarşıda duran vəzifələr haqqında;

Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələbləri, Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi və həbs qətimkan tədbirinin seçilməsi zamanı Konvensiyanın 5-ci maddəsinə əməl olunması vəziyyəti ilə bağlı çıxışları dinlənilmişdir.

**2011-ci ilin iyul ayının 5-də** Azərbaycan Respublikası Ali Məhkəməsində Cinayət Kollegiyasının hakimlərinin, Azərbaycan Respublikası Presidenti Administrasiyasının, Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndələrinin və Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin iştirakı ilə 31 may 2011-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərərfindən qəbul edilmiş və 01 iyul 2011-ci il tarixdə qüvvəyə minmiş "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun məhkəmələr tərəfindən tətbiqi ilə əlaqədar yaranmış

problemlərin həlli ilə bağlı iclas keçirilmiş və qanuna edilmiş dəyişikliklərin eyni cür tətbiq edilməsi məqsədilə sual-cavab toplusu hazırlanaraq məhkəmələrə göndərilmişdir.

**2011-ci ilin iyul ayının 11-də** Azərbaycan Respublikası Ali Məhkəməsində "Azərbaycan ailələrinin möcud problemlərinin həllinə yönəlmiş qanunvericilik bazası və onun təkmilləşdirilməsi perespektivləri" mövzusunda dəyərmi masa keçirilmişdir.

Dəyərmi masa iştirakçıları qarşısında giriş sözü ilə çıxış edən Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyev Azərbaycan Respublikasında son illər ailə problemlərinin həllinə diqqətin artdığını, uşaq hüquqlarının müdafiəsi ilə bağlı fundamental qanunvericilik bazasının yaradıldığını, bu sahədə Milli qanunvericilikdə ardıcıl islahatların həyata keçirildiyini vurğulamışdır.

**2011-ci ilin sentyabr ayının 7-də** Ali Məhkəmədə Mərkəzi Seçki Komissiyasının Dairə seçki komissiyalarının sədrləri üçün təşkil etdiyi seçki hüququ ixtisaslaşdırılmış kursların dinləyiciləri ilə görüş olmuşdur.

Ali Məhkəmənin sədi Ramiz Rzayev dinləyicilər qarşısında "Seçki hüquqlarının məhkəmə müdafiəsi, mübahisələrin məhkəmə aidiyyəti və onların həlli qaydası" mövzusunda məruzə ilə çıxış etmişdir.

**2011-ci ilin noyabr ayının 11-də** Ali Məhkəmənin sədri Ramiz Rzayev Şirvan Apellyasiya Məhkəməsində hakimlərin regional müşavirəsini keçirmişdir.

Müşavirədə İnsan Hüquqlarının etibarlı təmin olunmasında məhkəmələrin üzərinə düşən mühüm vəzifələr, bu sahədə hakimlərin yüksək məsuliyyəti qeyd edilmiş, vətəndaşların haqlı narazılığına səbəb olan nöqsanların qətiyyətlə aradan qaldırılması vurğulanaraq, müvafiq tövsiyyələr verilmişdir.

**2011-ci ilin dekabr ayının 27-də** Ali Məhkəmənin sədri Ramiz Rzayevin iştirakı ilə Şəki Apellyasiya Məhkəməsində hakimlərin regional müşavirəsi keçirilmişdir.

Ali Məhkəmənin sədri Ramiz Rzayev müşavirədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun tətbiqi və məhkəmələrin fəaliyyətində mövcud olan problemlərlə bağlı çıxış etmişdir.

**2011-ci ildə** Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının sədri Hikmət Mirzəyevin və kollegiyanın hakimlərinin iştirakı ilə Gəncə, Sumqayıt, Şirvan və Şəki İnzibati-İqtisadi Məhkəmələrinin hakimləri ilə seminar müşavirəsi keçirilmişdir.

## Ali Məhkəmənin 2011-ci ildə beynəlxalq əlaqələri

**2011-ci ildə Ali Məhkəmənin Beybəlxalq hüquq təşkilatları ilə əlaqələri daha da genişləndirilmiş və inkişaf etdirilmişdir. Bu əlaqələr qarşılıqlı qaydada faydalı əməkdaşlıq üçün yeni perspektivlər açmış, Ali Məhkəmənin daha da müasirləşdirilməsinə və təkmilləşdirilməsinə xidmət etmişdir. İl ərzində dünyanın mütərəqqi ölkələrinin, xüsusilə Avropa İttifaqına üzv olan ölkələrin məhkəmə və hüquq təşkilatları ilə işgüzar münasibətlər qurulmuş, bir sıra ölkələrlə qarşılıqlı səfərlər və təcrübə mübadilələri təşkil edilmişdir.**

**Yanvarın 28-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Fransanın Strasburq şəhərində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 2011-ci il üzrə məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli iclasda və “Konvensiyanın təkmil şərhinin hansı məhdudiyyətləri mövcuddur” mövzusunda keçirilmiş seminarda iştirak etmişdir.

**Yanvarın 31-də** ölkəmizdə səfərdə olan Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun proqram rəhbəri Britta Şvartz və hüquq layihəsi üzrə yeni təyin olunmuş məsləhətçi Dr. Falk Bomsdorf Ali Məhkəmənin cinayət kollegiyasının sədri Şahin Yusifovla görüşmüşlər.

Görüşdə əməkdaşlığın konkret prioritetləri müəyyənləşdirilmişdir.

**Fevralın 1-də** ölkəmizdə səfərdə olan Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Deker Ali Məhkəmənin Aparat rəhbəri Əlirza Kərimovla görüşmüşdür.

Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Deker Ali Məhkəmədə yeni informasiya texnologiyalarının tətbiqindən razı qaldığını bildirmiş və vurğulamışdır ki, layihə çərçivəsində məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqi ilə bağlı sənədlərin və baxılacaq işlərin idarə olunmasında daha təkmil elektron sistemin yaradılmasını nəzərdə tutan yeni layihə hazırlanacaqdır.

**Fevralın 1-də** Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Jozef Debono Qrex və Pedro Aqramunt Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Monitorinq Komitəsinin həmməruzəçiləri səfərin məqsədi, Azərbaycanın Avropaya inteqrasiyası, məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı fikirlərini bölüşmüşlər.

Ali Məhkəmənin sədri həmməruzəçilərin suallarını cavablandırmışdır.

**Fevralın 15-də** ATƏT-in Bakı Ofisinin dəvəti ilə ölkəmizdə səfərdə olan məişət zorakılığı məsələləri üzrə beynəlxalq ekspert xanım Ana Maria Rubio Encinas və ATƏT-in Bakı Ofisinin qanunun aliliyi və insan hüquqları şöbəsinin rəhbəri Monika Martines Ali Məhkəmənin Mülki kollegiyasının sədri Şəlalə xanım Məmmədova və Cinayət kollegiyasının sədri Şahin Yusifovla görüşmüşlər.

**Fevralın 22-də** ölkəmizdə səfərdə olan Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GTZ) Proqram rəhbəri Zeno Reyxenbexerin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin "Azərbaycanda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi" layihəsinin yeni rəhbəri Tomas Melserin təqdimatı olunmuşdur.

**Fevralın 28-də** Xorvatiya Respublikası Ali Məhkəməsinin sədri Branko Xrvatinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Azərbaycana işgüzar səfərə gəlmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsində Xorvatiya Respublikası Ali Məhkəməsinin sədri Branko Xrvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatlar və məhkəmə-hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

**Martın 15-də** ölkəmizdə səfərdə olan "Amnesty İnternational" qeyri-hökumət təşkilatının direktor müavini Con Dalyusendən, tədqiqatçı Natalia Nozadzedən və əməkdaşı Mark Takerdən ibarət nümayəndə heyəti Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifovla görüşmüşdür.

**Martın 18-də** ölkəmizdə səfərdə olan Mərakeşin Ədliyyə naziri Məhəmməd Nəsirinin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**28 fevral - 3 mart tarixlərində,** İtaliyanın Trieste şəhərində, Hüquqi mexanizmlərin vasitəsi ilə demokratiyaya nail olmaq üzrə Avropa komissiyası "Hakimlərin və Prokurorların müstəqilliyi: PERSPEKTİVLƏR və PROBLEMLƏR" üzrə seminar keçirmişdir.

Seminarda Ali Məhkəmənin Beynəlxalq Şöbəsinin baş məsləhətçisi Eldar Məlik-Abbasov iştirak etmişdir.

**Aprelin 27-də** ölkəmizdə səfərdə olan Litva Respublikasının Baş Prokuroru Darius Valis və Litvanın Xüsusi İstintaq Xidmətinin baş direktoru Zimantas Paseviçius Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Görüşdə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsi ilə Litva Respublikası Xüsusi İstintaq Xidməti arasında əməkdaşlıq haqqında sazişin və əməkdaşlıq proqramının imzalanmasının hər iki ölkənin hüquq mühafizə orqanları arasında əməkdaşlığın daha da genişlənəcəyinə və inkişafına xidmət edəcəyi bildirilmişdir.

**Aprelin 29-da** ölkəmizdə səfərdə olan Gürcüstan Respublikasının Ədliyyə Naziri - Baş Prokuroru Zurab Adeişvilinin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**Mayın 3-də** ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Baş Prokuroru Rəşidjon Kadırovun başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə əməkdaşlığın gələcək perspektivlərindən söhbət açılmışdır.

**Mayın 18-də** ölkəmizdə səfərdə olan Fransa Respublikası Ədliyyə və Azadlıqlar Nazirliyi Avropa və Beynəlxalq Məsələlər Xidmətinin rəisi Erik Metrpyer Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

**Mayın 23-də** ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti Ceyms Hamilton Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Vurğulanmışdır ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının Hərbi Prokurorluğu 1988-ci ildən Assosiasiyanın üzvlüyünə təşkilati üzv kimi qəbul olunmuşlar. Assosiasiyanın VEB saytının yaradılması milyonlarla prokurorun bir-biri ilə asan əlaqə saxlamasına kömək edir.

**Mayın 31-də** Gürcüstan ədliyyə naziri Zurab Adeişvilinin dəvətinə əsasən Ali Məhkəmənin sədri Ramiz Rzayev Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov, və Ədliyyə Nazirliyinin məsul əməkdaşlarından ibarət nümayəndə heyəti Acarıstan Muxtar Respublikasının Batumi şəhərində yeni Ədliyyə Evinin - Dövlət Xidmətləri binasının açılış mərasimində iştirak etmək üçün Gürcüstana səfər etmişlər.

**İyunun 6-da** Gürcüstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşanidze Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Gürcüstanla Azərbaycan arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığı vurğulanmışdır.

**İyunun 8-də** Ali Məhkəmədə Azərbaycan Respublikası Ali Məhkəməsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Vətəndaş və dövlət – Şərqi Avropa cəmiyyətlərində inzibati hüquq özünü necə doğruldur?" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Azərbaycanın, Almaniya, Gürcüstanın, Qırğızıstanın, Özbəkistanın, Tacikistanın, Ukraynanın, yerli və xarici qeyri-hökumət təşkilatlarının, ATƏT və Avropa Şurası nümayəndələrinin qatıldığı beynəlxalq konfransın işində 80 nəfər nümayəndə iştirak etmişdir.

**Sentyabrın 22-də** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Avropa Şurasının üzvü olan dövlətlərin Ali Məhkəmə sədrlərinin "İnsan hüquqlarının milli səviyyədə müdafiəsində Ali Məhkəmənin rolu" mövzusunda keçirilmiş dəyirmi masada iştirak etmək üçün Ukraynanın paytaxtı Kiyev şəhərində səfərdə olmuşdur.

Ali Məhkəmənin sədri Ramiz Rzayev "Məhkəmə hakimiyyəti və dövlət hakimiyyəti sistemində Azərbaycan Respublikası Ali Məhkəməsinin yeri" mövzusunda məruzə etmişdir.

Ali Məhkəmənin sədri müzakirə olunan mövzu ilə bağlı diskussiyalarda fəal iştirak etmiş, insan hüquqlarının milli səviyyədə müdafiəsi ilə bağlı dəyirmi masa iştirakçılarını maraqlandıran suallara ətraflı cavab vermişdir.

**Sentyabrın 22-dən-24-dək** Ali Məhkəmənin hakimi Əli Seyfəliyev Batumi şəhərində Gürcüstan Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Gələcəkdə dövlət xidmətlərinin göstərilməsi, korrupsiya ilə mübarizə sahəsində fəaliyyətin yaxşılaşdırılması" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmişdir.

**Oktyabrın 14-də** ABŞ-ın Azərbaycandakı səfirliyinin Ədliyyə Departamentinin yeni Rezident Hüquq müşaviri Erik Piterson Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Korrupsiyaya, insan alverinə, çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı birgə mübarizənin genişləndirilməsi, həmçinin məhkəmələrin müstəqilliyinin və hakimlərin bacarıqlarının gücləndirilməsi sahəsində əməkdaşlıq imkanlarından danışılmışdır.

**Oktyabrın 20-də** ölkəmizdə səfərdə olan İndoneziya Respublikası Konstitusiya Məhkəməsinin sədri Məhəmməd Mahfud və hakimi Maria Farida İndrati Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Görüşdə Azərbaycan və İndoneziya məhkəmə orqanları arasında hüquqi əməkdaşlığın perspektivləri, ədalət mühakiməsi sahəsində beynəlxalq hüquq normalarının və beynəlxalq məhkəmələrin presedent hüququnun tətbiqi aspektləri müzakirə edilmişdir.

**Noyabrın 2-də** ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Ədliyyə naziri Sadullah Erginin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatlar və məhkəmə hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

**Noyabrın 25-də** Azərbaycan Respublikası Ali Məhkəməsi və Baden-Vürttemberq Torpağının Ali İnzibati Məhkəməsi arasında məhkəmə tərəfdaşlığının qurulmasına dair imzalanmış Bəyannamənin icrası və Azərbaycanda "İnzibati icraat haqqında" Qanunun və İnzibati Prosessual Məcəllənin tətbiqi ilə bağlı təşkil olunan seminarlarda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Almaniyanın Baden- Vürttemberq Torpağının Ali İnzibatı Məhkəməsinin sədri Folker Ellenberqerin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Robert Boşş fondunun maliyyə dəstəyi ilə keçirilən bu seminarların imzalanmış Bəyannamənin icrası, həmçinin "İnzibati icraat haqqında" Qanunun və İnzibati Prosessual Məcəllənin tətbiqi ilə əlaqədar qarşıya çıxan problemlərin aradan qaldırılmasına xidmət etdiyi qeyd edilmişdir.

**Dekabrın 13-də** ölkəmizdə səfərdə olan Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) Baş Ofisinin Planlaşdırma və İnkişaf şöbəsinin nümayəndəsi Dr. Lotar Jahn və Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin Tiflisdə layihə rəhbəri Şalva Papiaşvili Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Görüşdə Almaniyanın Texniki Əməkdaşlıq Cəmiyyəti ilə Azərbaycan məhkəmə-hüquq sisteminin gələcək birgə fəaliyyətinin imkanları müzakirə olunmuşdur.

**Dekabrın 14-də** Azərbaycan Hüquq İslahatları Mərkəzinin (AHİM) təşəbbüsü ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində hakimlərin fərdi və peşə davranışları məsələlərinə həsr olunmuş "Səriştəlilik, Müstəqillik, Qərəzsizlik, Şəffaflıq, Səmərəlilik - müasir dövrün tələbləri prizmasından Azərbaycanda məhkəmə-hüquq islahatları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransın məqsədi Azərbaycanda aparılmış mütərəqqi məhkəm-hüquq islahatlarının əhəmiyyətinin müzakirəsi, BMT tərəfindən qəbul edilən "Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri"nin hüquq ictimaiyyətinə tanıdılması, ölkəmizdə hakimlərin davranış qaydalarını tənzimləyən cari Kodeksin adı çəkilən Prinsiplərin prizmasından təkmiləşdirilməsi perspektivlərinin müəyyən edilməsi və bu sahədə milli və beynəlxalq təcrübənin bölüşülməsindən ibarət olmuşdur.

**Dekabrın 15-16-da** Ali Məhkəmənin hakimi İslam Əliyev Albanyanın Tirana şəhərində “Avropa Məhkəməsi qərarlarının vaxtında icra edilməsi üçün səmərəli dövlətdaxili prosedurlar” mövzusunda keçirilən dəyirmi masada iştirak etmişdir.

## Bakıda inzibati hüquqa həsr olunmuş beynəlxalq konfrans

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə 2011-ci il iyunun 8-də Ali Məhkəmədə "Vətəndaş və dövlət – Şərqi Avropa cəmiyyətlərində inzibati hüquq özünü necə doğruldur?" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Azərbaycanın, Almaniya, Gürcüstanın, Qırğızıstanın, Özbəkistanın, Tacikistanın, Ukraynanın, yerli və xarici qeyri-hökumət təşkilatlarının, ATƏT və Avropa Şurası nümayəndələrinin qatıldığı beynəlxalq konfransın işində 80 nəfər nümayəndə iştirak etmişdir.

Beynəlxalq konfransın açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev, Ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədov, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti "Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarına dəstək" regional proqramının rəhbəri Zeno Rayxenbexer, ATƏT-in Bakı Ofisinin nümayəndəsi xanım Nataşa Rasic iştirakçıları Bakıda salamlamaqdan məmnunluq duyduqlarını ifadə etmiş və konfransın işinə uğurlar arzulamışlar.

Konfransda Baden-Vürttemberq Torpağının Ali İnzibati Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi barədə qısa filmlərin təqdimatlarından sonra Azərbaycan Respublikası Ali Məhkəməsi və Baden-Vürttemberq Torpağının Ali İnzibati Məhkəməsi arasında məhkəmə tərəfdaşlığının qurulmasına dair Bəyannamə imzalanmışdır.

Birinci sessiyada Baden-Vürttemberq Torpağının Ali İnzibati Məhkəməsinin sədri Folker Ellenberqer Azərbaycanda inzibati hüququn yaradılması ilə bağlı həyata keçirmiş məsləhətləşmələrə baxışla bağlı məruzə etmiş, fikirlərini konfrans iştirakçıları ilə bölüşmüşdür.

İnzibati məhkəmələrin fəaliyyətinə müqayisəli baxışla ılaqədar ikinci sessiyada Gürcüstan Ali Məhkəməsinin sədri Dr. Konstantin Kublaşvili, Ukrayna Ali İnzibati Məhkəməsinin sədri Aleksandr Pasenyuk məruzələr etmiş, təhlillər aparmışlar.

Üçüncü sessiyada Azərbaycan Respublikasında inzibati məhkəmələrə və inzibati orqanlara müxtəlif mövqeləri özündə əks etdirən məruzələr dinlənilmişdir.

Məruzələr ətrafında müzakirələr olmuş, fikir mübadiləsi aparılmış, suallar cavablandırılmışdır.

Sonda Ali Məhkəmənin sədri Ramiz Rzayev inzibati hüquq sahəsində ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin əhəmiyyətli olduğunu vurğulamış və qonaqlara təşəkkürünü bildirmişdir.



## Almaniyanlı hakimlərin iştirakı ilə seminarlar təşkil edilmişdir



2011-ci il noyabrın 25-də Azərbaycan Respublikası Ali Məhkəməsi və Baden-Vürttemberq Torpağının Ali İnzibati Məhkəməsi arasında məhkəmə tərəfdaşlığının qurulmasına dair imzalanmış Bəyannamənin icrası və Azərbaycanda "İnzibati icraat haqqında" Qanunun və İnzibati Prosessual Məcəllənin tətbiqi ilə bağlı təşkil olunan seminarlarda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Almaniyanın Baden-Vürttemberq Torpağının Ali İnzibatı Məhkəməsinin sədri Folker Ellenberqerin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Ali Məhkəmənin sədri almaniyalı hakimləri Azərbaycanda salamlamaqdan məmnunluğunu ifadə etmiş, respublikamızda inzibati məhkəmələrin yaradılmasının vacib olduğunu və ictimaiyyət tərəfindən müsbət qarşılandığını bildirmişdir. Ali Məhkəmənin sədri inzibati məhkəmələrin yaradılmasından ötən dövr ərzində fəaliyyətləri barədə almaniyalı hakimlərə məlumat vermişdir. Bu sahədə Azərbaycan hakimlərinin Almaniyanın zəngin təcrübəsindən bəhrələndiklərini vurğulamışdır.

Almaniyanın Baden- Vüttemberq Torpağının Ali İnzibati Məhkəməsinin sədri Folker Ellenberqer Robert Boşş fondunun maliyyə dəstəyi ilə keçirilən bu seminarların imzalanmış Bəyannamənin icrası, həmçinin "İnzibati icraat haqqında" Qanunun və İnzibati Prosessual Məcəllənin tətbiqi ilə əlaqədar qarşıya çıxan problemlərin aradan qaldırılmasına xidmət etdiyini qeyd etmişdir. Almaniyalı qonaq anoloji seminarların Ali Məhkəmənin İnzibati İqtisad Kollegiyasının, Bakı və Sumqayıt Apellyasiya Məhkəmələrinin İnzibati İqtisad Kollegiyalarının, İnzibati İqtisad məhkəmələrinin, habelə Gəncə, Şəki, Şirvan Apellyasiya Məhkəmələri hakimlərinin iştirakı ilə keçirildiyini bildirmişdir.

Görüşün sonunda Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə orqanlarına göstərdikləri xüsusi dəstəyə görə Robert Boşş fonduna və almaniyalı hakimlərə təşəkkürünü bildirmiş, gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

## Hakimlərin davranışı məsələlərinə həsr olunmuş beynəlxalq konfrans

Son illər ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılmış islahatların nəticəsi olaraq tamamilə yeni və bütün beynəlxalq tələblərə cavab verən məhkəmə sistemi yaradılmışdır. Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlər bir sıra nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında müsbət dəyərləndirilərək digər ölkələr üçün nümunə kimi göstərilmişdir.

Dekabrın 14-də Azərbaycan Hüquq İslahatları Mərkəzinin (AHİM) təşəbbüsü ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində hakimlərin fərdi və peşə davranışları məsələlərinə həsr olunmuş "Səriştəlilik, Müstəqillik, Qərəzsizlik, Şəffaflıq, Səmərəlilik - müasir dövrün tələbləri prizmasından Azərbaycanda məhkəmə-hüquq islahatları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Tədbir Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Hüquq İslahatları Mərkəzi (AHİM) və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı (GİZ) tərəfindən təşkil olunmuşdur.

Konfransın məqsədi Azərbaycanda aparılmış mütərəqqi məhkəm-hüquq islahatlarının əhəmiyyətinin müzakirəsi, BMT tərəfindən qəbul edilən "Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri"nin hüquq ictimaiyyətinə tanıdılması, ölkəmizdə hakimlərin davranış qaydalarını tənzimləyən cari Kodeksin adı çəkilən Prinsiplərin prizmasından təkmiləşdirilməsi perspektivlərinin müəyyən edilməsi və bu sahədə milli və beynəlxalq təcrübənin bölüşülməsindən ibarətdir.

Tədbiri giriş sözü ilə açan Ali Məhkəmənin sədri Ramiz Rzayev konfransın hüquq ictimaiyyəti üçün əhəmiyyəti barədə danışmış, hakimlərin öz fəaliyyətlərində Banqalor Prinsiplərindən yararlana bilmələrini qeyd etmişdir.

Tədbirin iştirakçıları arasında Birləşmiş Krallıqdan olan BMT-nin Ədalətli Məhkəmə Hakimiyyəti üzrə Hakimlər Qrupunun koordinatoru, professor Nihal Cayavikramanın, Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vitse-prezidenti Georq Stavanın, Türkiyə Ali Məhkəməsinin hakimi Sami Sezai Uralın çıxışlan maraqla qarşılanmış, azərbaycanlı hakimlərin maraq doğuran sualları ekspertlər tərəfindən ətraflı cavablandırılmışdır.

Professor Nihal Cayavikrama öz çıxışında konfrans iştirakçılarına Banqalor Prinsiplərinin hazırlanması tarixi, bu sənədin hansı zərurətdən ortaya çıxması barədə məlumat vermişdir. Natiq Azərbaycan dövlətinin və hüquq ictimaiyyətinin Prinsiplərə belə həssaslıqla yanaşılmasını təqdirəlayiq hal hesab etmiş və regionda ilk dəfə AHİM tərəfindən özünün müəlliflərindən biri olduğu "Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri"nin Kommentariyasının tərcüməsini mühüm hadisə hesab etmişdir.

Tədbirdə həmçinin Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Hüseyin Yıldırım, Gürcüstan Ali Məhkəməsinin sədr müavini Vasil Roinişvili, Almaniyanm Azərbaycandakı səfiri Herbert Kvelle, bir sıra dövlət, qeyri-dövlət və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Ümumilikdə, tədbirdə xarici və yerli iştirakçılar da daxil olmaqla 100-ə yaxın hüquqşünas iştirak edirdi.

Konfransda Ədliyyə Nazirliyinin Təşkilat-Nəzarət Baş İdarəsinin rəisi, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərovun "Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları və ümumi qəbul olunmuş dəyərlər", Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayevin "AR Konsitusiyası prizmasından müstəqil və qərəzsiz hakim idealı", Azərbaycan Hüquq İslahatları Mərkəzinin (AHİM) sədri Anar Bağırovun "Hakimlərin davranışı üzrə Banqalor Prinsiplərinə vəkil baxışı" və digər natiqlərin tədbirlə bağlı müxtəlif mövzularda çıxışları ətrafında müzakirələr aparılmışdır.



# Ali Məhkəmənin İnternet səhifəsi




Ali Məhkəmənin İnternet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılması üçün tərtib edilən internet səhifəsi *www.supremecourt.gov.az* ünvanında yerləşir.

Ali Məhkəmənin internet səhifəsi 10 bölmədən ibarətdir. Burada Respublikamızın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu, Plenumun fəaliyyəti, Qərarları (müvafiq məhkəmə kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar), hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsində yeni "E-Xidmətlər" bölməsi yaradılmışdır ki, burada məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış və istifadəyə verilmişdir.

Qrafiklərdə müraciətlərin illər üzrə müqayisəsi və müddətə görə paylanması nümayiş etdirilmişdir.

2011-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 40503 dəfə daxil olunmuşdur ki, bunların 34396-sı Azərbaycandan, 1858-i Rusiyadan, 1273-ü ABŞ-dan, 206-sı Türkiyədən, 388-i Ukraynadan, 202-i İngiltərədən və 2180-ı isə digər ölkələrdən olmuşdur.




Birinci qrafikdən göründüyü kimi 2011-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 25218, daxil olmaların sayi 40503, müraciətlərin sayı isə 246775 dəfə olmuşdur ki, bu da ötən ilin uyğun dövrünə nisbətən orta hesabla 1.44, 1.42 və 1.49 dəfə artıqdır.

İkinci qrafikdə edilən müraciətlərin müddətə görə paylanması nümayiş edilmişdir. Buradan göründüyü kimi bütün müracətlərin 47.26%-i 10 saniyəyə qədər, 7.02%-i 11-30 saniyə, 6.11%-i 31-60 saniyə, 12.09%-i 1-3 dəqiqə, 13.93%-i 3-10 dəqiqə, 10.46%-i 10-30 dəqiqə 3.16%-i isə 30 dəqiqədən artıq davam etmişdir.

## Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından çap olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirilmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar dərc edilir.

2011-ci ildə Ali Məhkəmənin dörd bülleteni və 4 saylı bülletenə əlavə buraxılış çap olunmuşdur.

Həmin bülletenlərdə əsasən Cinayət işləri və Mülki işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, apellyasiya instansiyası məhkəmələrinin cinayət və mülki işlər üzrə bəzi qərarlarının ləğv edilməsinə və dəyişdirilməsinə səbəb olan halları özündə əks etdirən hüquqi məqalələr, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, Ali Məhkəmədə 2011-ci ildə keçirilmiş tədbirlər Ali Məhkəmənin Plenumunda müzakirə olunan məsələlər və qəbul edilən qərarlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

Ali Məhkəmənin 2011-ci il 4 saylı bülletenə əlavədə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin 18 mart 2011-ci tarixli qərarı dərc edilmişdir.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı **36 manatdır.**

Abunə haqqı aşağıda gösərilən hesaba ödənilməlidir.

VÖEN 3100693732, H/h 010965553821AZN01 Unibank KB-də, VÖEN 1300017201, kod 505754, m/h 0137010015944, SWİFT BİK: UBAZAZ22.

# Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indii də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2010-cu ildə ayrılan illik vəsait 5087060 manat, o cümlədən, əmək haqqı fondu 3348857 manat müəyyən müəyyən edildiyi halda, 2011-ci ildə Ali məhkəməyə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) 5465842 manat, o cümlədən, əmək haqqı fondu 3171431 manat müəyyən edilmişdir ki, bu da bütövlükdə bundan əvvəl ayrılan büdcə vəsaitindən 378782 manat çox olmuşdur.

# Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğlu və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə 493-09-91 nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla 493-22-03 nömrəli telefonla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@supremecourt.gov.az e-mail ünvanı vasitəsilə də əldə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları 493-18-37 nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.